# Rusiyanın Sumıya zərbələrindən ölənlər arasında iki uşaq var

31 dəqiqə öncə




Sumıya Rusiya zərbələri

Rusiya qoşunları avqustun 4-nə keçən gecə Ukraynaya bir "İskəndər-M" ballistik raketi və 136 zərbə dronu buraxıb. Ukrayna Hərbi Hava Qüvvələrinin məlumatına görə, dronlardan 117-si vurulub. Bu məlumatı müstəqil mənbələr təsdiqləməyib.

Sumıda Rusiyanın zərbələrindən 5 və 10 yaşlı iki qız və yaşlı bir qadın həlak olub.

Vilayət Hərbi Administrasiyasının rəhbəri **Oleq Qriqorov** bildirib ki, Rusiya hərbçiləri şəhərin mülki infrastrukturuna altı idarəolunan aviasiya bombası atıblar.

**"Uşaqların meyitləri yaşadıqları evin dağıntıları altından çıxarıldı. Ağır gecə, dəhşətli nəticələr. Yaşayış evləri və qeyri-yaşayış tikililəri dağıdılıb və zədələnib"**, – o yazıb.

Олег Григоров | Сумська ОВА



❗ **Двоє дітей та літня жінка загинули від ударів російських КАБ у Сумах цієї ночі**

Дівчата **5 та 10 років.**
Тіла дітей дістали з-під завалів їхнього будинку.

Невимовний біль. Найщиріші співчуття родині загиблих.

Важка ніч, жахливі наслідки.
Зруйновані та пошкоджені житлові будинки, нежитлові споруди.
Тривають обстеження та ліквідація наслідків атаки.

• Ще четверо людей звернулися по медичну допомогу. У них гостра реакція на стрес.

• За уточненою інформацією, шість керованих авіабомб влучили по цивільній інфраструктурі міста.
Ще дві російські авіабомби, за даними Сил протиповітряної оборони, вдалося збити на підльоті до населених пунктів.

😢 106 💔 42 😡 8 ❤️ 1

16.9K 👁 Aug 4 at 04:32

Dnepropetrovsk vilayət administrasiyasının rəhbəri **Aleksandr Qanja**nın sözlərinə görə, Pavloqrad rayonuna Rusiyanın hücumu nəticəsində iki nəfər yaralanıb, fərdi yaşayış evlərinə ziyan dəyib.

Nikopol rayonunda isə çoxmərtəbəli yaşayış binasına zərər dəyib.

Rusiya ordusunun Odessa vilayətinə zərbəsindən iki nəfər yaralanıb.

Nikolayev vilayətində 89 yaşlı qadın həlak olub, yeddi nəfər yaralanıb. Yaralananlar arasında 2 və 12 yaşlı iki qız da var.

## "Wildberries" mərkəzləri yenidən hədəfdə

Leninqrad vilayətinin Krasnıy Bor qəsəbəsində dron hücumundan sonra "Wildberries" anbarında yanğın baş verib.

Vilayətin qubernatoru **Aleksandr Drozdenko**nun sözlərinə görə, hücum zamanı vilayət üzərində 17 dron vurulub. Bir nəfər xəsarət alıb.

Drozdenko sonradan zərbənin hədəfinin "Wildberries" və "Russ" şirkətlərinin birləşmiş logistika mərkəzləri olduğunu söyləyib.

Moskva vilayətinin qubernatoru **Andrey Vorobyov** bildirib ki, dronların hücumu nəticəsində beş nəfər həlak olub, daha altı nəfər yaralanıb. Onun sözlərinə görə, əsas dağıntılar Çexov bələdiyyə dairəsində qeydə alınıb.

Vorobyov Novosyolki sənaye zonasına dron zərbəsi nəticəsində bir neçə yanğının baş verdiyini bildirib. Novosyolkidə "Wildberries" şirkətinin iki çeşidləmə mərkəzi yerləşir.



**В подмосковном Чехове атакован складской комплекс Новоселки, — OSINT-анализ ASTRA**

В результате атаки БПЛА, которую подтвердил губернатор Московской области, вероятно атакована площадка перед складским комплексом в городе Чехов, Новоселки, вл. 11, ст 3 склад, установил OSINT-аналитик ASTRA.

> «В промзоне Новоселок в результате попадания БПЛА произошло несколько возгораний. Наиболее крупное — на складе, где открытое горение уже ликвидировано. Также повреждены электроподстанция и административное здание», — ранее сообщил губернатор Андрей Воробьев.

В результате атаки погибли пять человек, шестеро ранены, уточнил Воробьев.

📷 ***Прислать фото/видео/ информацию:*** @helloastrabot

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur